# Fərəh doğuran uğurlar



**Hər dəfə Sumqayıta yolum düşəndə ürəkaçan, qəlbsevindirən bir yeniliyin şahidi oluram. Bütün bunlar Sumqayıt Şəhər Mədəniyyət və Turizm İdarəsinin rəisi Namiq Qaffarovun rəhbərliyi dövrünə təsadüf etdiyindən bir dost kimi daha çox fərəhlənirəm. İstər-istəməz Namiq müəllimlə nazirlikdə keçirdiyimiz unudulmaz günləri, apardığımız işgüzar söhbətləri, bölüşdüyümüz maraqlı fikirləri yada salıram.**

O vaxt N.Qaffarov nazirliyin regionlarla iş sektorunun müdiri vəzifəsində çalışırdı və bəri başdan qeyd edim ki, ona göstərilən etimadı ləyaqətlə doğruldurdu. Yerlərlə daim əlaqə saxlayır, şöbələrə əməli və metodiki kömək göstərir, mədəniyyətimizin inkişafı və təbliğində qabaqcıl metodlara əsaslanmağı tövsiyə edir, lazım gələndə bölgələrə baş çəkir, onların həyata keçirilməsi yollarını kollektiv üzvlərinə`göstərirdi.

Bütün bunlar Namiq müəllimin işini gözəl bildiyini, onun incəliklərinədək bələd olduğunu göstərirdi. Təsadüfi deyil ki, qısa zaman kəsiyində o, Sumqayıtda bu qədər uğura imza atmışdır.

N.Qaffarovla bu dəfəki görüşümüz Sumqayıt Şəhər Mərkəzləşdirilmiş Kitabxana Sisteminin əsaslı təmirdən sonra açılışı ərəfəsinə təsadüf etdi. Həmin gün MKS-in direktoru Yeganə Əhmədova ilə də görüşdük. Şəhərin 60, kitabxananın isə 50 illik yubileyləri ilə bağlı Yeganə xanım aşağıdakıları söylədi:

- 1949-cu ildə Azərbaycanın coğrafi xəritəsinə şəhər kimi Sumqayıtın da adı yazıldı. Qeyd etmək istərdim ki, Sumqayıtda ilk kütləvi kitabxananın təşkili təxminən doğma şəhərimizin yaranması ilə eyni vaxta düşür /C.Məmmədquluzadə adına kitabxana/. Bunun arxasınca 1953-cü ildə uşaq kitabxanası fəaliyyətə başlayıb. Lakin bu kifayət deyildi. Şəhər zəhmətkeşlərinin elmə, maariflənməyə, istehsalat sahəsində olan yenilikləri öyrənməyə olan ehtiyacı və bununla əlaqədar bilavasitə kitaba olan tələbatın ödənməməsi artıq 50-ci illərin sonlarında göz qabağında idi. Buna görə də 1958-ci il martın 24-də Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsi yeni Mərkəzi Şəhər Kitabxanasının açılmasını qərara aldı. Kitabxana əvvəlcə şəhərin Lenin Prospektinin 4/5 №-li binasında yerləşirdi. 1966-cı ildə kitabxanaya görkəmli şairimiz Səməd Vurğunun adı verildi.

1 iyul 1974-cü ildən S.Vurğun adına Mərkəzi Kitabxananın bazası əsasında şəhərdə fəaliyyət göstərən dövlət kütləvi kitabxanalarının birləşdirilməsi qərara alındı. Qərarda deyildiyi kimi, bu mərkəzə S. Vurğun adına Mərkəzi Kitabxana, A. Qaydar adına uşaq kitabxanası, C.Məmmədquluzadə adına kitabxana, Corat qəsəbə kitabxanası və 1, 2, 3, 4, 5, 6, 7, 8, 9 №-li filiallar daxil idi. O vaxtdan etibarən S.Vurğun adına Mərkəzi Kitabxana sistemə daxil olan digər kitabxana - filiallara metodik mərkəz funksiyasını yerinə yetirir. Hal-hazırda Mərkəzi Kitabxananın 19 filialı var. Bu filiallardan dördü uşaqlara, qalanı isə böyük yaşlı oxuculara xidmət edir. Kitabxananın nəzdində 5 şöbə: xidmət, vahid fondun təşkili və istifadəsi, kitabxanalararası abonement, komplektləşdirmə və kitabişləmə, məlumat-biblioqrafiya və təşkilati-metodiki şöbələri fəaliyyət göstərir.

Mərkəzi Kitabxananın xidmət şöbəsi əhaliyə abonement və oxu zalı vasitəsilə xidmət göstərir. Oxucuların müxtəlif sorğularını tez və dolğun ödəməyə çalışır, çap əsərlərindən səmərəli istifadə etməyə kömək edir, fondun qorunmasını həyata keçirir.

Vahid fondun təşkili və istifadəsi şöbəsi Mərkəzləşdirilmiş Kitabxana Sisteminə daxil olan kitabxanalar arasında ədəbiyyat mübadiləsi aparır, vahid fondu təbliğ edir. Sistem kitabxanalar arasında müvəqqəti kitab mübadiləsi yolu ilə oxucuların sorğularının vaxtında və'tam ödənilməsinə yardım edir.

Komplektləşdirmə və kitabişləmə şöbəsi oxucuların ümumtəhsil, mədəni və peşə sorğularının ödənilməsi üçün kitabxananın universal profilli kitab fondunu komplektləşdirir.

Məlumat-biblioqrafiya şöbəsi sistemin oxucularına biblioqrafiya xidmətini təşkil edir, lazım olan ədəbiyyatın seçilməsinə köməklik göstərir, oxucuların kartotekalardan, tövsiyə siyahılarından və biblioqrafik materiallardan istifadə etmələrinə imkan yaradır.

Təşkilati-metodiki şöbə sistemə daxil olan kitabxanaların fəaliyyətini məzmun, forma və metodik baxımdan əlaqələndirir. İşin yeni üsul və metodlarını öyrənməklə qabaqcıl təcrübədən bəhrələnir, kadrların ixtisaslarının artırılması işinin təşkil olunmasına kömək edir.

Kitabxana informasiyanı əhalinin bütün təbəqələrinə çatdırmaq, daha böyük oxucu kütləsini kitabxanaya cəlb etmək üçün müxtəlif səpkili mədəni, kütləvi tədbirlər - kitab müzakirələri, ədəbi-bədii gecələr, oxucu konfransları, şair və yazıçılarla görüşlər keçirir, kitabxananın işi, yeni daxil olan ədəbiyyatın xülasəsi vaxtaşırı qəzet səhifələrində işıqlandırılır.





Şəhər əhalisi və oxucular arasında apardığı səmərəli təbliğatçılıq fəaliyyətinə görə S.Vurğun adına Mərkəzi Kitabxana dəfələrlə - SSRİ Mədəniyyət Nazirliyi (1967), Ümumittifaq Lenin Komsomolunun Mərkəzi Komitəsi (1971, 1973), Azərbaycan SSR Mədəniyyət Nazirliyi (1973), Azərbaycan SSR Könüllü Kitabsevərlər Cəmiyyəti (1981, 1987), Sumqayıt Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsi (1967, 1968, 1977, 1978, 1979, 1982), Sumqayıt Şəhər Mədəniyyət şöbəsi (1967, 1973, 2003) tərəfindən fəxri fərmanla, 1973 və 1978-ci illərdə Azərbaycan KP MK-nın Keçici Qırmızı Bayrağı, diplom və pulla mükafatlandırılmış, 1980-ci ildə SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin 3-cü dərəcəli diplomuna layiq görülmüş, 2003-cü ildə Açıq Cəmiyyət İnstitutu - Yardım Fondunun kitabxanalar proqramı çərçivəsində respublika kitabxanaları arasında keçirdiyi müsabiqədə qalib gəlmişdir. 18 yanvar 1977-ci ildə S.Vurğun adına Mərkəzi Kitabxana Azərbaycan SSR Mədəniyyət Nazirliyi tərəfindən respublika kitabxanaları üçün təcrübə bazası elan edilmişdir.

Bu gün kitabxanamızın keçdiyi şərəfli həyat yolundan bəhs edərkən onun inkişafında və quruculuğunda fəal iştirak etmiş insanların adlarını çəkməmək doğru olmazdı. Belə ləyaqətli insanlardan kitabxanamızın əvəzolunmaz siması, hamımızın sevimlisi Svetlana xanım Ağayevanın adını xüsusilə qeyd etmək istərdim. 70 illik ömrünün 46 ildən çoxunu bu doğma divarlar arasında keçirən Svetlana xanımı kitabxanamızın "canlı tarixi" adlandırsaq səhv etmərik. Mərkəzi Kitabxananın əldə etdiyi bütün nailiyyətlər, aldığı mükafatlar birbaşa bu zəhmətkeş insanın yorulmaz əməyinin bəhrəsidir. Onun əmək fəaliyyəti və şəxsi nümunəsi çoxları üçün həyat məktəbinə çevrilmişdir. Bundan başqa Lyudmila Həsənovanın, İster Şamayayevanın, Gülzar Xaşalovanın, Tamilla Xudaverdiyevanın, Tamilla Məmmədovanın, bu gün aramızda olmasa da işıqlı xatirəsi həmişə bizimlə olan Xoşqədəm Mahmudovanın, Almaz Mehmanovanın və həmçinin bu gün bu kitabxanada çalışan kitabxanaçılarımızdan Gülnaz Səfərovanın, Rəna Həsənovanın Təranə Mirzəyevanın, Rübabə Mütəllimovanın, Nazxanım Cəfərovanın, Nailə Əsgərovanın, Bela Quliyevanın, Zenfıra Mirzəyevanın və onlarla adlarını çəkə bilmədiyim fədakar, əməksevər, təmənnasız xidməti ilə oxucuların rəğbətini qazanan digər insanların bu kitabxananın inkişafında əvəzsiz xidmətləri olmuşdur.

**Qeyd etmək istəyirəm ki, S.Vurğun adına Mərkəzi Kitabxananın uzun illər planlaşdırılan təmiri şəhər rəhbərliyinin diqqət və qayğısı sayəsində 2008-ci ildə reallaşdırıldı və aprelin 17-də kitabxanamızın əsaslı təmirdən sonra açılışı oldu. Açılışda Şəhər İcra Hakimiyyətinin başçısı Vaqif Əliyev, mədəniyyət və təhsil işçiləri, kütləvi informasiya vasitələri və həmçinin bu açılışı səbirsizliklə gözləyən oxucularımız iştirak edirdi. Sonra icra başçısı qiraət zalında oxucular qarşısında çıxış edərək bu abad şəraitin, yeni dizayn, işıq və nur selinin ilk növbədə oxucuların rahatlığına xidmət etməli olduğunu xüsusi olaraq qeyd etdi, rəy və təkliflər kitabına öz ürək sözlərini yazdı...**

**Y.HİDAYƏTOĞLU**